# Abbasağa Azərtürkün 90 illik yubileyi



25 noyabr 2024-cü il tarixdə AYB Lənkəran Bölməsi, Cəlilabad rayon İcra Hakimiyyəti və Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin Cəlilabad rayon Mədəniyyət Şöbəsinin birgə təşkilatçılığı ilə Cəlilabad şəhərindəki H.Əliyev Mərkəzində tanınmış şair, mərhum Abbasağa Azərtürkün anadan olmasının 90 illik yubileyi qeyd olundu.

Tədbiri giriş sözü ilə rayonun tanınmış mədəniyyət işçisi Xeyrulla Şahbazov açdı. Şəhidlərin və şairin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra iştirakçılar Abbasağa Azərtürkün həyat və yaradıcılığını əks etdirən videorolikə baxdılar. Sonra tədbiri aparmaq üçün söz tanınmış şair Ədalət Salmana verildi. Ə. Salman tədbir iştirakçılarını salamlayıb Abbasağa Azərtürk haqqında ətraflı danışmaq üçün sözü onun dostu və iş yoldaşı, rayonun tanınmış ziyalısı Atamalı Əliyevə verdi. Atamalı müəllim öz məruzəsində onun çoxşaxəli yaradıcılığından ətraflı bəhs etdi. Şeirlərindən ifa edib xatirəsinin heç zaman unudulmayacağını bildirdi.

Tədbirdə AYB Lənkəran bölməsinin sədri, yazıçı, dramaturq Qafar Cəfərli çıxış edərək Abbasağa Azərtürkün özünəməxsus ifadə üslubu, dəsti-xətti olan, öz imzası ilə respublika ədəbi mühitində tanınan şairlərdən olduğunu bildirib, yaradıcılığının müxtəlif məqamlarına toxundu. Belə şəxslər haqqında vaxtaşırı tədbirlər keçirilməsinin vacibliyini vurğuladı.

Daha sonra tədbirdə iştirak edən Cəlilabad Rayon İcra Hakimiyyətinin rəsmi nümayəndəsi Varid Əsgərov, şair və yazıçılardan Əfraim Abbas, Gülbala Teymur, Meyxoş Abdullah, Ağamir Cavad, Səyavuş Süleymanlı, Ruhiyyə Abbaszadə, Arzu Əyyarqızı, Vaqif Qasımov, Asif Həsənli, İman Abdulla, Əlövsət Tahirli, Qurban Əhməd, Sakit Üçtəpəli, Fail Almas, Cəlil Qurban, Zülfi Vellidağ, İlqar İsmayılzadə, veteran müəllimlərdən - Adıgözəl Nuriyev, Ədalət Əsgərov, Elxan Əliyev və başqaları çıxış etdilər. Tanınmış qiraət ustası Tarix Vüsallı və Cəlilabad şəhər 7 saylı tam orta məktəbin gənc qiraətçiləri şairin şeirlərini səsləndirdilər.

Çıxış edənlər şairin yaradıcılıq imkanlarının genişliyindən, xarakterinin bütövlüyündən, müəllim və dost kimi tələbkar və diqqətli olmasından, haqsızlıqlara qarşı daim mübarizə aparmasından, gözəl ailə başçısı kimi cəmiyyətə xeyirli övladlar yetirməsindən danışaraq onu coşqun təbə və ilhama malik olan bir şair, vətənpərvər bir insan, bütöv bir şəxsiyyət kimi xarakterizə etdilər. Sonda şairin oğlu Əli Hüseynov çıxış edərək tədbir iştirakçılarına və zəhməti keçən hər kəsə ailə adından minnətdarlığını bildirdi.

Tədbirin sonunda şair Ədalət Salmanın redaktoru, AMEA Ədəbiyyat İnstitutunun ədəbi tənqid şöbəsinin müdiri, filologiya elmləri doktoru, tanınmış tənqidçi Vaqif Yusiflinin "Şair səfərdədir, axtarışdadır" adlı Ön söz yazdığı Abbasağa Azərtürkün 90 illiyi münasibətilə yenicə çap olunan "Cavabsız məktublar" kitabı iştirakçılara hədiyyə olundu. Sonda xatirə şəkilləri çəkildi.

**AYB Lənkəran Bölməsi**